Azərbaycan Milli Elmlər Akademiyası
NAXÇIVAN BÖLMƏSİ
ELEKTRON KİTABXANA



# NAXÇIVANIN TARİXİ, ARXEOLOGİYA VƏ ETNOQRAFİYASI

**Daycest**

**Tərtibçi:** **M.Əhmədli**

**Redaktoru:** **N.Kəngərli**

**Naxçıvanın tarixi, arxeologiya və etnoqrafiyası**: **Daycest** /tərt. ed. M.Əhmədli; red. N.Kəngərli.–Naxçıvan, 2023.– 26 s.

**©AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası, 2023**

# Tərtibçidən

Daycest - (“digest”- ingilis dilindən tərcümədə “xülasə”, “toplu” mənasını verir) çap olunmuş dövri nəşrlər haqqında qısa xülasədən ibarət siyahı və ya çap kataloqu kimi də izah edilir. Daycestlərin hazırlanması müəyyən bir mövzu və ya kitabxanaçıları daha çox narahat edən hər hansı aktual məsələ ilə bağlı daha dərin və ətraflı tədqiqat aparmağa, müxtəlif mənbələrdə çap olunmuş materialların (əsasən dövri nəşrlər) qısa xülasəsini əks etdirməklə onu geniş ictimaiyyətin diqqətinə çatdırmağa xidmət edir. Daycestdə məqalələr illər üzrə əlifba ardıcıllığı ilə verilir.

Sizə təqdim edəcəyimiz Daycestdə Naxçıvanın tarixi, arxeologiya və etnoqrafiyası ilə bağlı müxtəlif dövri nəşrlərdə dərc edilmiş məqalələr araşdırılmış, təhlil edilmiş və seçmə yolu ilə diqqətə çatdırılmışdır.

Vəsaitdə seçilmiş məqalələr və onların qısaca məzmunu illər üzrə, daxildə isə əlifba düzülüşü ilə verilmişdir.

**Ünvan:** AZ-7000 Naxçıvan şəh. H.Əliyev prospekti 35

**E-mail:** amea@nmr.az

## 2006

**[Hacıyev, İ. Naxçıvan Muxtar Respublikasında törədilən siyasi repressiyalar/İsmayıl Hacıyev// Xəbərlər:Elmi jurnal.-2006-№2.-S.7-12.]**

Məqalədə keçən əsrin 20-30-cu illərində Naxçıvan Muxtar Respublikasında hökm sürən repressiya prosesləri, onların ağır nəticələri və baş verən faciələr təsvir edilmişdir. Müəllif arxiv materiallarına, müxtəlif faktlara əsaslanaraq keçmiş Sovetlər İttifaqında, həmçinin də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hakimiyyət orqanları və bu orqanlara soxulmuş ermənilərin ən qəddar üsullardan istifadə edərək azərbaycanlıları güləlləmələri, həbs etmələri, sürgün etmələri, hüquqlarından məhrum etmələri haqqında məlumatlar vermişdir. Bütün bunların naxçıvanlıların həyatına, fəaliyyətinə, mənəviyyatına pis təsir göstərməsi məqalədə geniş işıqlandırılmışdır.

***

**[Quliyev, M. Naxçıvan xanları ilə bağlı yeni araşdırmalar/Musa Quliyev// Xəbərlər: Elmi jurnal.-2006.-№2,-S.46-50.]**

Məqalədə Naxçıvan xanlığının yaranması, hakimiyyətdə olan xanların idarə sistemi, digər xanlıqlarla diplomatik əlaqələri araşdırılmışdır.

XVIII əsrin ortalarında Azərbaycanın şimalında yaranmış xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Kəngərli tayfasının Nadir şahın ölümündən sonra hakimiyyətə gəlməsindən bəhs edən məqalədə

1787-ci ildə baş verən çevrilişdən sonra xanlığı idarə edən Kalbalı xan Murad xan oğlu Kəngərlinin ağıllı siyasəti, hərbi bacarığı və ondan sonra hakimiyyətə gələn xanların da bu irsi layiqincə davam etdirməsi təsvir edilmişdir.

***

**[*Rəhimov, Y. A.S.Qriboyedov və Naxçıvan/Yaşar Rəhimov//Xəbərlər:Elmi jurnal.-2006.-№2.-S.42-46.*]**

Məqalədə rus şair və diplomatı Aleksandr Sergeyeviç Qriboyedovun Naxçıvana səyahəti və XIX əsrin əvvəllərində Naxçıvan tarixində baş vermiş çox mühüm hadisələr araşdırılmışdır. Qeyd olunmuşdur ki, A.S.Qriboyedov “Erivan yürüşü” adlı yol qeydlərində 1827-ci il iyunun 23-də Paskeviçin komandanlığı ilə rus qoşunlarının Naxçıvan torpaqlarını İran qoşunlarından azad etmək üçün hücuma başlamasını və onun nəticələrini aydın şəkildə təsvir etmişdir. Qədim tarixə sahib olan Naxçıvanın Rusiya tərəfindən işğalı ərəfəsini təsvir edən qeydlərin rus yazıçısı və diplomatı A.S.Qriboyedovun 1971-ci ildə Moskvada nəşr olunmuş “Записка о переселении армян из Персии в наши области” əsərində yer almasını da müəllif məqalədə diqqətə çatdırmışdır.

# 2007

**[*Baxşəliyev, V.Gəmiqaya təsvirlərinin tarixləndirilməsinə dair/Vəli Baxşəliyev//Xəbərlər:Elmi jurnal.-2007.-№3.-S.106-113.*]**

Məqalədə Gəmiqaya təsvirlərinin tədqiqi qədim Naxçıvan mədəniyyətinin e.ə. IV-I minilliklərdə Cənubi Qafqaz, Cənubi Azərbaycan və Şərqi Anadolu ölkələri ilə bağlı olduğunu göstərir.

***

**_Hacıyev, İ. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası parlamentinə seçkilərin keçirilməsi/İsmayıl Hacıyev//Xəbərlər:Elmi jurnal.-2007.-№3.-S.5-10._**

Məqalədə Azərbaycanda müstəqilliyin bərpa edilməsi ilə ölkədə vətəndaş cəmiyyəti quruculuğu üçün hüquqi bazanın yaratdığı imkanlar əsasında seçkilərin təşkil olunması və nəticələri təhlil edilir. 1995, 2000 və 2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında istər Azərbaycan Respublikası Milli Məclisinə, istərsə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərin nəticələrinin beynəlxalq müşahidəçilər tərəfindən qəbul edilməsi göstərilir. Məqalədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarında müzakirə olunan problemlərə və qəbul edilən qərarlara da diqqət yetirilir.

***

**_Səfərli, H. Yuxarı Əylis: tarixi, abidələri/ Səfərli Hacıfəxrəddin//Xəbərlər:Elmi jurnal.-2007.-№3.-S.11-17._**

Məqalədə Ordubad rayonu Yuxarı Əylis kəndinin tarixindən və abidələrindən bəhs edilmişdir. Orta əsrlər dövründə kiçik bir şəhər olan yuxarı Əylisdə məscid, mədrəsə, körpülər və indiyədək mövcud olan bəzi epiqrafik abidələr haqqında ətraflı məlumat verilmişdir.

# 2008

**_Hacıyeva, S. Naxçıvanın daşyonma mərkəzləri haqqında/Sara Hacıyeva//Xəbərlər:Elmi jurnal.-2008.-№1.-S.105-110._**

Məqalədə qədim Naxçıvan ərazisində orta əsrlərdə fəaliyyət göstərən daş emalı mərkəzləri tədqiq edilir. Tədqiqat nəticəsində məlum olur ki, Naxçıvanın müxtəlif yerlərində, xüsusilə Culfa, Kırna, Tivi, Aşağı Buzqov və digər yaşayış məntəqələrində daş emal mərkəzləri fəaliyyət göstərmişdir.

***

***Quliyev, M. Naxçıvan xanlığının Rusiya tərəfində işğalı və Türkmənçay danışıqları/Musa Quliyev// Xəbərlər: Elmi jurnal.-2008.-№1.-S.99-104.***

Məqalədə Naxçıvan xanlığının ələ keçirilməsindən və Türkmənçay danışıqlarına gətirib çıxaran hadisələrin əsas aspektlərindən bəhs edilir. Türkmənçay müqaviləsi yenidən arxiv materialları əsasında tədqiq edilir. Müəllif məqalədə ilk dəfə istifadə etdiyi sənədlər əsasında Azərbaycanı iki yerə bölən Türkmənçay müqaviləsinin gizli tərəflərini araşdırır.

# 2009

***Hacıyev, İ. Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan /İsmayıl Hacıyev//Naxçıvan Dövlət Universiteti:Elmi əsərlər:Elmi jurnal.-2009.-№2(27).-S.14-22.***

Məqalədə Azərbaycanın dövlətçilik ənənələrinə və bu prosesdə Naxçıvanın roluna diqqət yetirilir. Çıxarılan nəticələrin mahiyyəti belədir: Naxçıvan ən qədim insan məskənlərindən biridir və bu bölgədə müxtəlif dövlət qurumları, etno-siyasi birliklər yaradılmışdır. Naxçıvan

Azərbaycan Atabəyləri, Naxçıvan xanlığı, Araz Türk Respublikası, Naxçıvan MSSR, Naxçıvan Muxtar Respublikası kimi dövlət qurumlarının dövlətçilik ənənələrini qoruyub saxlamış və onlar Azərbaycan tarixində mühüm rol oynamışdır.

***

**_Şıxəliyev, E. Erməni alimlərin Naxçıvanla bağlı iddiaları /Emin Şıxəliyev//Xəbərlər:Elmi jurnal.-2009.-№2.-S.34-39_.**

Məqalədə tarix boyu erməni alimlərinin Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana qarşı irəli sürdükləri əsassız ərazi iddialarından bəhs edilir.

***



**_Əliyev, İ. Naxçıvanda ictimai vəziyyət(Səfəvilər dövrü) /İlhami Əliyev//Xəbərlər:Elmi jurnal.-2009.-№1.-S.85-91._**

Məqalədə Səfəvilərin hakimiyyəti dövründə Naxçıvan bölgəsində yaşayan əhalinin etnik quruluşu nəzərdən keçrilir. Hələ qədim zamanlardan türk boylarının bu bölgənin aborigenləri olduğu vurğulanır. Naxçıvanın qubernator vəzifələrinə təyin olunan Kəngərli tayfasının dövrünün ən güclü tayfası olduğu diqqətə çatdırılır.

## 2010

***Qədirzadə, Q. İslamaqədərki dövrdə Naxçıvan və çevrəsində etnik-mədəni münasibətlər /Qadir Qədirzadə//Xəbərlər:Elmi jurnal.-2010.-№3.-S.112-120.***

Məqalədə İslamdan əvvəlki dövrdə Naxçıvanda və onun ətrafında baş verən etnik-mədəni proseslər təhlil edilir. Çoxsaylı tarixi materiallar əsasında məlum olmuşdur ki, bu ərazidə qədim zamanlardan Azərbaycan türklərinin əcdadları məskunlaşmış və onlar islamdan əvvəlki dövrdə əhalinin əsas hissəsini təşkil etmişdir.

## 2011

***Səfərli, H. Naxçıvanda orta əsr xətt nümunələri(epiqrafik materiallar əsasında) /Hacıfəxrəddin Səfərli//Xəbərlər:Elmi jurnal.-2011.-№3.-S. 29-36.***

Məqalədə orta əsrlərdə Naxçıvanda epiqrafik abidələr əsasında dəst-xətt növlərindən istifadə olunması barədə məlumat verilir. İslamın qəbulu ilə əlaqədar olaraq ərəb əlifbasının bölgədə əsas yazı növünə çevrildiyi göstərilir. Epiqrafik abidələr yaradılarkən eyni əlifbadan istifadə olunub. Yazıların müxtəlif şriftlərlə yaradılmasının XIV əsrin ikinci yarısından başlaması və müxtəlif illərdə formalaşması qeyd edilmişdir.

***

***[Rəhimov, Y. Konstantin Nikitinin “Naxçıvan şəhəri və Naxçıvan qəzası” məqaləsi Naxçıvan bölgəsi tarixinin mənbəyi kimi / Yaşar Rəhimov//Xəbərlər:Elmi jurnal.-2011.-№1.-S.24-31.]()***

Məqalədə Naxçıvan tarixinin bəzi problemlərinin rus müəlliflərinin əsərlərində öz əksini tapması qeyd edilir. Naxçıvanın XIX əsr tarixinə dair yazılı mənbələrdən biri olan K.A.Nikitinin “Naxçıvan şəhəri və Naxçıvan vilayəti” haqqında olan məqalədə elmi əsası olmayan səhv tarixi faktların olması diqqətə çatdırılır.

# 2012

***[Hacıyev, İ. “Naxçıvan sancağının müfəssəl dəftəri” Naxçıvan tarixinin öyrənilməsinin mühüm mənbəyi kimi/İsmayıl Hacıyev//Xəbərlər:Elmi jurnal.-2012.-№1.-S.9-17.]()***

Məqalədə XVI əsrin sonu və XVIII əsrin əvvəllərində Osmanlı imperiyasının tərkibində olmuş və bununla əlaqədar osmanlı tərəfindən “Naxçıvan sancağı” adlandırılan Naxçıvan diyarının ərazisi, yaşayış məntəqələri, əhalisi haqqında müfəssəl məlumat verilir. Əhalinin siyahıya alınması, məşğuliyyəti, təsərrüfat həyatı, toplanan vergilər və onların növləri təhlil edilir. Aydın olur ki, “Müfəssəl dəftər” əhalidən vergiləri sistemli şəkildə yığmağa yönəldilsə də, burada Naxçıvanın XVI və XVII əsr tarixini, tarixi coğrafiyasını və onlarla digər sahələrini öyrənmək və erməni iddialarına obyektiv cavab vermək üçün materiallar da yer alır.

***

***

***[Hacıyeva, S. Orta əsrlərdə Naxçıvanda fəaliyyət göstərən sənətkarlıq mərkəzləri haqqında/Sara Hacıyeva//Xəbərlər:Elmi jurnal.-2012.-№3.-S.38-47.]***

Məqalədə orta əsrlər dövründə Azərbaycanın digər ərazilərində olduğu kimi, Naxçıvan bölgəsində də çoxlu sənət növlərinin inkişaf etməsi, bu səbəbdən də burada müxtəlif sənətkarların cəm olduğu sənətkarlıq mərkəzlərinin yaradılması, Naxçıvan ustalarının hazırladıqları sənətkarlıq məmulatlarının, demək olar ki, Yaxın Şərqdə özünəməxsus yer tutması və şöhrət tapması göstərilir. Bunların içərisində dulusçuluq, daşişləmə, ağacişləmə, toxuculuq, misgərlik, zərgərlik, boyaqçılıq, ipəkçilik və s. sənətkarlıq sahələrini nümunə göstərmək olar.

# 2013

***[Səfərli, H. Naxçıvan epiqrafik abidələri tarix-mədəniyyət abidəsi kimi/Hacıfəxrəddin Səfərli//Xəbərlər:Elmi jurnal.-2013.-№3.-S.19-27.]***

Məqalədə Naxçıvan bölgəsində indiyədək gəlib çatan epiqrafik abidələrdən bəhs olunur. Qeyd edilir ki, ərəb əlifbasının müxtəlif xətləri ilə həkk olunmuş bu abidələr Azərbaycanın orta əsrlər dövrü tarix və mədəniyyətinin müxtəlif problemlərinin obyektiv, hərtərəfli və dərindən öyrənilməsində  mühüm rola malikdir.

***

***Məmmədova,Y. XIX əsrdə Naxçıvanda təhsil: zemstvo məktəbi, xalq məktəbi, ibtidai məktəb/Məmmədova Yeganə//Xəbərlər:Elmi jurnal.-2013.-№3.-S-63-69.***

Məqalədə XIX əsrin başlanğıcında Naxçıvan əhalisinin savadlanmasında mühüm rol oynamış və Naxçıvanın ictimai-siyasi, mədəni həyatında əvəzedilməz rola malik Zemstvo məktəbi, xalq məktəbi, ibtidai məktəblər və başqalarından bəhs edilir.

***

***Xəlilov, T. Naxçıvan abidələrinin öyrənilməsi və qorunmasında əldə olunmuş nailiyyətlər /Toğrul Xəlilov//Xəbərlər:Elmi jurnal.-2013.-№3.-S.78-85.***

Məqalədə Naxçıvan Muxtar Respublikasında aparılan arxeoloji tədqiqatlardan və abidələrimizin qorunmasında əldə olunmuş uğurlardan bəhs edilir.

# 2014

***Baxşəliyev, V. Eramızdan əvvəl VI-I minilliklərdə Naxçıvanın əhalisi və etnik-mədəni proseslər/Vəli Baxşəliyev//Xəbərlər:Elmi jurnal.-2014.-№1.-S.106-116.***

Məqalədə Naxçıvan ərazisində türk etnoslarının məskunlaşması, arxeoloji və onomastik materialların araşdırılmasından bəhs edilir. Bu araşdırmalar göstərir ki, Naxçıvan ərazisində formalaşan qədim mədəniyyətlər türk tayfaları tərəfindən yaradılmış və tayfalar regionun sosial-siyasi həyatında mühüm rol oynamışdır.

***

**_Səfərli H. Naxçıvanın blokadası Zəngəzurun Ermənistana verilməsi ilə başlandı./H.Səfərli//Şərq qapısı qəzeti.-2014.-4 iyul.-S.2._**

Məqalədə qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının böyük bir hissəsinin ermənilər tərəfindən 1918-ci ildən başlayaraq işğal edilməsi, XX əsrin əvvəllərindən Naxçıvanın blokada şəraitində yaşaması və bu bölgəyə muxtariyyət statusunun verilməsi zərurətindən bəhs edilmişdir.

**_Hacıyev, İ. Naxçıvan Muxtar Respublikası: İnkişafdan intibaha/İsmayıl Hacıyev//Xəbərlər:Elmi jurnal.-2014.-№3.-S.9-25._**

Məqalədə Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində ictimai-siyasi həyatından, sosial-iqtisadi və mədəni inkişafından bəhs edilmişdir. XX əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərində Naxçıvanda baş verən hadisələr, ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi, Muxtar Respublika Ali Məclisinə sədr seçilməsi və həyata keçirdiyi tədbirlər araşdırılır. Həmçinin ümummilli lider Heydər Əliyevin Naxçıvanı blokadadan çıxarması istiqamətindəki fəaliyyəti, qonşu ölkələrlə yaratdığı əlaqələr və Naxçıvanı xilas etməsi öz əksini tapmışdır. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişaf sahəsində əldə etdiyi çox böyük uğurlar Naxçıvan möcüzəsi kimi xarakterize edilmişdir.

# 2015

**_Səfərli, H. Naxçıvanda xalçaçılığın inkişafı tarixindən /Hacıfəxrəddin Səfərli//Xəbərlər:Elmi jurnal.-2015.-№1.-S.23-32._**

Məqalədə Naxçıvanda xalçaçılığın inkişafı tarixindən bəhs olunur. Qeyd olunur ki, xalçaçılıq Azərbaycanda eramızdan bir neçə əsr əvvəl meydana gəlmiş, erkən orta əsrlər zamanı müstəqil sənət sahəsinə çevrilmişdir. Qoyunçuluğun inkişafı, boyaq bitkiləri ilə zəngin olması bölgədə orta əsrlər zamanı xalçaçılığın inkişafına güclü təsir göstərmişdir. Məqalədə, həmçinin xarici ölkələrin muzey və kolleksiyalarında saxlanılan Naxçıvan xalçaları haqqında da məlumat verilmişdir.

***

***Hacıyev, İ. Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesindəki roluna dair(e.ə. III minillik-e.ə. II minilliyin sonları)(II məqalə)/İsmayıl Hacıyev//Xəbərlər:Elmi jurnal.-2015.-№3.-S.9-15.***

Məqalədə Azərbaycanda dövlətin yaranmasına dair yeni müddəalar - tayfaların siyasi birlikləri və şəhər-dövlətin başlanğıcı, Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesindəki rolu tədqiq edilmişdir. Əldə olunan nəticə ondan ibarətdir ki, dövlətin meydana gəlməsi qəbilə və tayfa birliklərinin yaranması, yaxud şəhər-dövlətlərin əmələ gəlməsi ilə formalaşır. Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesində oynadığı rol və tutduğu yer araşdırılmış və müəyyən edilmişdir ki, e.ə. III minillik-e.ə. II minilliyin sonlarında qəbilə və tayfa birliklərinin yaranması dövlətin formalaşmasına kömək etmişdir. Tayfa birlikləri əsasında formalaşmış dövlət qurumları süqut etmiş, II minilliyin sonları-I minilliyin əvvəllərində onların yerində şəhər - dövlətlər yaranmışdır. Bu prosesdə Naxçıvan ərazisindəki II Kültəpə, Şahtaxtı, Nuhdaban və Naxçıvan şəhərləri xüsusi olaraq qeyd edilmişdir.

# 2016

## [Tase P. Naxçıvan: Paleolit və Neolit dövrünün inkişafı/Peter Tase// Şərq qapısı qəzeti.-2016.-16 sentyabr.-S.2.]

Məqalədə Naxçıvan Muxtar Respublikasında aparılmış arxeoloji tədqiqatların Azərbaycanın bu regionunu beynəlxalq əhəmiyyətli əraziyə çevirməsindən, Paleolit və Neolit dövründən bəri bəşəriyyətin iqtisadi, istehsal və təkamül inkişafına böyük töhfələr verməsindən bəhs edilmişdir.

***

## ***Şıxəliyev E. Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna verilən beynəlxalq təminatdır/Emin Şıxəliyev//Şərq qapısı qəzeti.-2016-13 oktyabr.-S. 2.***

Məqalədə  Qars müqaviləsi və bu müqavilənin tarixi əhəmiyyəti, Ermənistanın bu müqavilə ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etməsi və erməni ekspansionizminin qarşısına sədd çəkməsindən bəhs edilmişdir.

## ***Cəfərli, E. Sovet Rusiyasının Cənubi Qafqazda milli siyasəti və Naxçıvan məsələsi/Elman Cəfərli//Xəbərlər: Elmi jurnal.-2016.-№3.-S.98-110.***

Məqalədə 1918-1921-ci illərdə sovet Rusiyasının Cənubi Qafqazda yürütdüyü milli siyasətin Naxçıvanla bağlı cəhətləri araşdırılır. Bu dövrdə Rusiyanın regionda "mübahisəli ərazilər" məsələsində

antiazərbaycan siyasəti onun riyakar və ermənipərəst cəhətlərində özünü göstərirdi. Bu siyasətin həyata keçirilməsində sovet Rusiyasının dövlət xadimləri G.Çiçerin, İ.Stalin və S.Orconikidze fəal rol oynayırdılar. Lakin Naxçıvan özünün Azərbaycana məxsusluğu və onun tərkibində qalması uğrunda ciddi mübarizə apardı. Məhz bu mübarizənin nəticəsində Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinə səbəb olan beynəlxalq müqavilələr imzalandı və konstitusion aktlar qəbul edildi.

***

***Tahirli, A. Naxçıvanın antik dövr arxeoloji abidələrinin təsərrüfatın öyrənilməsi üçün əhəmiyyəti/Aytən Tahirli//Xəbərlər: Elmi jurnal.-2016.-№3.-S.197-210.***

Məqalədə Azərbaycanın Antik dövr (e.ə. IV- b.e. III əsrlər) tarixinin öyrənilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində müəyyən yaşayış yerlərinin aşkar olunması, Oğlanqala, Qoşatəpə, Babatəpə, Püsyan, Aqvantəpə, Meydantəpə və digər abidələrində aparılan arxeoloji qazıntı və kəşfiyyat işlərinin önəmi araşdırılmışdır.

# 2017

***Quliyeva, Z. Naxçıvanın qədim müdafiə tikililəri qalatikmə mədəniyyətinin əsası kimi/Zeynəb Quliyeva//Xəbərlər: Elmi jurnal.-2017.-№1.-S.14-24.***

Məqalədə Naxçıvanın qədim müdafiə tikililəri tədqiq edilmişdir. Müəllifin qənaətlərinə əsasən, ilkin müdafiə tikililəri hələ Neolit dövründən formalaşmağa başlamışdır. I Kültəpədən aşkar olunmuş qədim arxitektura qalıqları bu fikri təsdiq edir. Yaşayış yerində ilk arxeoloji qazıntılar görkəmli arxeoloq O.Həbibullayevin rəhbərliyi altında 1951-1964-cü illərdə aparılmışdır. 2013-2015-ci illərdə abidə V.Baxşəliyev və K.Maronun rəhbərliyi ilə yenidən tədqiqata cəlb edilmişdir. Bu qazıntılar nəticəsində abidədən aşkar edilən arxeoloji materiallar Son Neolit dövrünü əks etdirir (e.ə.6070-5000). Burada yaşayış yerlərini əhatə edən ümumi mühafizə divarının qalıqları, həmçinin təsərrüfat çuxurları, müxtəlif təyinatlı ocaq yerləri və iş yerləri qeydə alınmışdır. Müdafiə xarakterli divarlar Şomutəpə, Xatunarx, İsmayılbəytəpə, eyni zamanda Anadoludakı Çayönü, Kuruçay kimi sinxron abidələrdən də aşkar edilmişdir. Bu faktlar həmin regionlarda, o cümlədən Naxçıvanda müdafiə qurğularının tikilməsi ənənəsinin son neoloit dövründən başlayıb son dövrlərədək davam etdiyini təsdiq edir.

***

***Kəlbizadə, E. XX əsrin 20-ci illərində Naxçıvan diyarının inzibati-ərazi quruluşu(tarixi coğrafi araşdırma)/Elnur Kəlbizadə//Xəbərlər: Elmi jurnal.-2017.-№1.-S.161-172.***

Məqalədə XX əsrin 20-ci illərində XI Qırmızı Ordunun Naxçıvana daxil olması və Naxçıvan Sovet Sosialist Respublikasının elan edilməsindən sonra Naxçıvan MSSR-in inzibati-ərazi quruluşu araşdırılmışdır. Dövrün inzibati ərazi quruluşunun öyrənilməsi nəticəsində müəllif belə qənatə gəlir ki, Naxçıvanda sovet hakimiyyətinin qurulduğu ilk dövrlərdən etibarən bölgənin inzibati-ərazi quruluşunda eksperimental xarakterli dəyişikliklər etmiş, bu gün

Ermənistan Respublikasının ərazisində olan bir sıra kəndlər o zaman məhz Naxçıvan SSR-in müxtəlif rayonlarının tərkibində olmuşdur.

***

**[*Əliyev, İ. Naxçıvan monqol hücumları zamanında/İlhami Əliyev //Xəbərlər: Elmi jurnal.-2017.-№3.-S.26-32.*]**

Məqalədə XIII əsrin 20-50-ci illərində monqolların Azərbaycana hücumları, bu hücumlar nəticəsində Azərbaycanın digər tarixi bölgələrində olduğu kimi, Naxçıvanda da yaşanan fəlakətlər göstərilmişdir. Qeyd edilmişdir ki, monqol istilaları özü ilə nəinki bölgəyə, onun daxil olduğu ölkəyə, bütövlükdə Qafqaza, Ön Asiyaya, Kiçik Asiyaya tarixdən heç vaxt silinməyəcək fəlakətlər gətirmiş, Azərbaycanda, o cümlədən Naxçıvanda da yüksək inkişaf səviyyəsinə çatmış intibah mədəniyyətini bu hücumlar tənəzzülə uğratmışdır.

# 2018

**[*Səfərli, H. 2018-ci il üçün islam mədəniyyətinin paytaxtı-Naxçıvan şəhəri /Hacıfəxrəddin Səfərli//Xəbərlər:Elmi jurnal.-2018.-№1.-S.12-21.*]**

Məqalədə 2018-ci il üçün islam mədəniyyətinin paytaxtı seçilən Naxçıvan şəhərindən bəhs edilir. Qeyd olunur ki, 2009-cu ildə bu haqda qərar qəbul edilməsi heç də təsadüfən olmamışdır. Naxçıvan şəhəri tarixən böyük inkişaf yolu keçmiş, orta əsrlər zamanı islam intibahının mərkəzlərindən biri olmuşdur. Burada Azərbaycan, bütövlükdə islam

mədəniyyətinin möhtəşəm nümunələri yaradılmışdır. Bu abidələr müasir dövrdə yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Məqalədə, həmçinin bununla bağlı möhtəşəm tədbirin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılan Təşkilat Komitəsi, Təşkilat Komitəsinin ilk iclası və həyata keçirilən tədbirlər haqqında məlumat verilir.

***

***Quliyev, M. Naxçıvan xan sarayı/Musa Quliyev// Xəbərlər: Elmi jurnal.-2018.-№1.-S.38-42.***

Məqalədə Naxçıvanın tarixi abidələrlə zəngin olmasından söhbət açılır. Qeyd olunur ki, bu tarixi abidələrdən biri də Naxçıvan xanlarının sarayıdır. Əvvəllər bu saray I Kalbalı xana, sonralar isə onun varislərinə məxsus olmuşdur. Tədqiqatçı ilk dəfə sənədlər əsasında səyyahların Naxçıvan xanlarının saraylarını necə təsvir etmələrindən də ətraflı söhbət açmışdır.

***

***Cəfərov, F. Azərbaycan xalq cümhuriyyəti illərində Naxçıvanda siyasi vəziyyət /Fəxrəddin Cəfərov//Xəbərlər:Elmi jurnal.-2018.-№3.-S.19-26.***

Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti illərində Naxçıvanda hökm sürən siyasi vəziyyət, ermənilərin burada törətdikləri vəhşiliklər o dövrə aid sənəd və materialların da köməyi ilə geniş şəkildə işıqlandırılmışdır. Həmçinin məqalədə AXC-nin süqutundan sonra SSRİ zamanında tarixi faktların təhrif olunmasına baxmayaraq, müstəqillik dövründə o zaman yaşananlara həqiqi qiymətin verilməsi, o dövrdə xalqımızın məruz qaldığı haqsızlıqları və böyük zəhmətlərin nəticəsi olaraq əldə olunan Naxçıvanın muxtariyyətinin böyük səylər nəticəsində dünya ictimaiyyətinin diqqətinə çatdırılması məsələlərinə geniş yer verilmişdir.

# 2019

**Hacıyev, İ. Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. /İsmayıl Hacıyev//Xəbərlər:Elmi jurnal.-2019.-№1.-S.9-17.**

Məqalədə Naxçıvan Muxtar Respublikasının yaradılmasına qədərki vəziyyət, yaradılma prosesi və sonrakı inkişaf tarixi araşdırılmışdır. Məqalədən aydın olur ki, 1917-1920-ci illərdə, çar Rusiyasının son illərində, Azərbaycan Xalq Cümhuriyyəti, həm də bolşevik Rusiyası dövründə erməni daşnaklarının "böyük Ermənistan" yaratmaq uğrunda mübarizəsində məkrli amillər mühüm yer tutmuşdur. İlk növbədə çar Rusiyasının yaxından köməyi ilə qədim Azərbaycan torpağı olan İrəvan ərazisində Ermənistan dövləti (Ararat Respublikası) yaradılmışdır. Yenə çar və Bolşevik Rusiyasının, İngiltərə və ABŞ-nin yardımı ilə onun ərazisi genişləndirilmişdir. Bunun qarşısını almaq üçün Naxçıvan əhalisi, Osmanlı dövləti mübarizə aparmalı olmuşdur. Behbud ağa Şahtaxtinskinin V.İ.Leninə yazdığı məktub və teleqramlar, Türkiyənin Rusiya ilə apardığı danışıqlar erməni məkrinin qarşısını almışdır. 1921-ci ilin yanvarında Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə bağlı referendum keçirilmiş və əhalinin 90 faizindən çoxu bunun lehinə səs vermişdir. 1921-ci ilin mart və oktyabr aylarında Moskva və Qars beynəlxalq müqavilələri ilə Naxçıvan Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmış və Azərbaycan onu üçüncü dövlətə verməməsini öz öhdəsinə götürmüş və bunu təsdiq edən tərəflər (Türkiyə, Azərbaycan və Ermənistan) müəyyən edilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikası yaradılmışdır. Məqalədə Naxçıvan Muxtar Respublikasının hüquqi əsasları da verilmişdir.

***

**[Quliyeva, Z. Naxçıvanın neolit dövrü ocaqları/Zeynəb Quliyeva//Xəbərlər:Elmi jurnal.-2019.-№1.-S.89-96.]**

Məqalədə Naxçıvanın Neolit dövrü ocaqları araşdırılmışdır. Qeyd edilmişdir ki, ocaqlar Naxçıvanın neolit mədəniyyətinin özünəməxsus xüsusiyyətlərinin müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan I Kültəpə yaşayış yeri diqqəti cəlb edir. Abidə XX-XXI əsrlər ərzində 2 dəfə arxeoloji tədqiqata cəlb edilmişdir. Birinci dəfə 1951-1964-cü illərdə O.Həbibullayevin rəhbərliyi altında, ikinci dəfə isə AMEA-nın müxbir üzvü V.Baxşəliyevin və K.Morronun rəhbərliyi ilə əcnəbi arxeoloqlar və AMEA Naxçıvan Bölməsinin, o cümlədən müəllifin də iştirak etdiyi ekspedisiya tərəfindən tədqiq olunmuşdur. Hər iki tədqiqat nəticəsində çoxsaylı ocaqlar aşkarlanmışdır.

**[Orucov, A. Naxçıvan şəhərinin maddi mədəniyyəti (XIX-XX əsr)/Asəf Orucov//Xəbərlər:Elmi jurnal.-2019.-№3.-S.88-93.]**

Məqalə XIX-XX əsr Naxçıvan şəhərinin tarixi-etnoqrafik tədqiqinə həsr edilmişdir. Bəhs olunan dövrdə Naxçıvan şəhərinin adının dünyanın iri şəhərləri ilə birgə çəkildiyi qeyd edilmişdir. Araşdırmalardan məlum olmuşdur ki, Naxçıvan şəhəri o dövrdə və ondan əvvəlki dövrlərdə bir neçə dəfə xarici hücumlar nəticəsində dağılmış, sonrakı dövrlərdə yenidən bərpa edilmişdir. Məqalədə, həmçinin Naxçıvan şəhərinin məhəllələri, hamamları, bazarları, şəhərin quruluşu və s. məsələlər araşdırılmışdır.

# 2020

**Hacıyev, İ. Naxçıvan Muxtar Respublikası müstəqillik illərində(1995-2020-ci illər)/İsmayıl Hacıyev//Xəbərlər:Elmi jurnal.-2020.-№1.-S.9-18.**

Məqalədə ulu öndər Heydər Əliyevin Naxçıvana qayıtması, Ali Məclisin Sədri seçilməsi və bu illərdə həyata keçirdiyi tədbirlər - milli dövlətçiliklə bağlı qərarların qəbulu, Naxçıvanın müdafiəsinin təşkili, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün məqsədyönlü şəkildə apardığı fəaliyyət öz əksini tapmışdır.

# 2021

**Həsənov , S. Neolit inqilabinin dəfnetmə adətlərinə təsiri (Naxçıvan materialları əsasında) / Səbuhi Həsənov //Xəbərlər:Elmi jurnal.-2021.-№1.-S.115-120.**

Məqalədə Naxçıvanda I Kültəpə yaşayış yerində tədqiq olunan qədim torpaq qəbirlərin Neolit inqilabında ulu əcdad kultunun yaranmasını təsdiq etdiyi vurğulanmışdır. Qeyd olunmuşdur ki, bu qəbirlərdə mərhumun yarı bükülü, sağ və ya sol çiyni üstə müxtəlif istiqamətlərə doğru yönəlmiş şəkildə dəfn edilməsi və yanına qoyulan əşyalar o dövrdəki insanların mənəvi dünyası və məşğuliyyəti haqqında məlumat verməyə əsas verir.

***

**Rəhimov , Y. 1901-1907-ci illərdə Naxçıvana erməni köçürülmələri, qırğın və talanlar/ Yaşar Rəhimov //Xəbərlər:Elmi jurnal.-2021.-№3.-S.42-47**

Məqalədə Naxçıvanın 1901-1907-ci illər tarixinə aid müəyyən məsələlər, həmin illərdə mənfur ermənilərin bölgədə törətdikləri qırğın və talanlar, Naxçıvana erməni köçürülmələrinin davam etməsi, köçkünlərin köçürüldükləri yerlərdə istədikləri şəraitlə təmin olunmaları, onlara hərtərəfli diqqət və qayğı göstərilməsi, bu köçürülmələrin nəticələri və b. məsələlər tədqiq edilmişdir. Həmçinin daşnaklar tərəfindən 1905-1907-ci illərdə Naxçıvan şəhərində və bölgənin digər ərazilərində törədilən qarşıdurmalar və qırğınlar, yerli əhaliyə-azərbaycanlılara qarşı törədilən qanlı hadisələr, bu hadisələrdə kazakların ermənilərə yaxından köməklik göstərmələri, kilsənin və terrorçu siyasi partiyaların Naxçıvandakı qanlı hadisələrdə iştirakı məsələləri də araşdırılmışdır. Məqalənin sonunda belə bir nəticəyə gəlinmişdir ki, Naxçıvan xülyaları ilə yaşayan erməni millətçilərinin bu arzuları gözlərində qalacaqdır.

# 2022

***Baxşəliyev, V. Naxçıvantəpə keramikasının yaxın şərqlə əlaqələri/Vəli Baxşəliyev//Xəbərlər:Elmi jurnal.-2022.-№1.-S.81-89.***

Məqalədə qeyd olunur ki, Azərbaycan Son Neolit və Erkən Eneolit dövrü mədəniyyətlərinin araşdırılması Cənubi Qafqazın xammal yataqları ilə bağlı olaraq bu bölgələr arasında qarşılıqlı əlaqə yarandığını və bu əlaqələrin Dalmatəpə mədəniyyətinin formalaşması ilə nəticələndiyini göstərir. Azərbaycanın güneyində yerləşən Naxçıvantəpə yaşayış yerinin hələlik Dalmatəpə mədəniyyətinin ən qədim yaşayış yeri olması bildirilir. Araşdırmalar Mil düzü və Qarabağın basmanaxışlı keramika ilə xarakterizə olunan mədəniyyətinin Dalmatəpə mədəniyyətinin formalaşmasına təsir etdiyini göstərir. Naxçıvantəpənin Son Neolit təbəqəsindən götürülən bir kömür nümunəsi e.ə. 5209-4930-

cu illəri, digər bir nümunə isə e.ə. 5038-4799-cu illəri göstərmişdir. Tədqiqatlara əsasən Dalmatəpə mədəniyyətinin e.ə. VI minilliyin sonu və V minilliyin başlarında formalaşdığını söyləyə bilərik. Alimin fikrinə görə, Dalmatəpə mədəniyyəti Naxçıvan və Urmiya hövzəsini əhatə edən bir bölgədə formalaşmış və bu bölgədən güneyə doğru yayılmışdır.

# 2023

**_Rəhimov , Y. I dünya müharibəsi illərində Naxçıvan bölgəsində siyasi vəziyyət/Yaşar Rəhimov //Xəbərlər:Elmi jurnal.-2023.-№1.-S.26-32_**

Məqalədə I Dünya müharibəsi illərində Naxçıvan bölgəsində yaranmış siyasi vəziyyət araşdırılmışdır. Məqalə yazılarkən Azərbaycanın tarixçi-alimlərinin əsərləri ilə yanaşı, arxiv sənədlərindən də istifadə edilmişdir. Bəhs edilən illərdə bölgə siyasi cəhətdən ağır vəziyyətə düşmüşdü. 1916-cı ilin oktyabrında Naxçıvan şəhərində keçirilən siyasi əməliyyatlardan sonra Naxçıvanda hökumət əleyhinə olan gizli təşkilatın sirri açıldı və üzvləri arasında kütləvi həbslər aparıldı. Ağır və ciddi təqiblərinə baxmayaraq təcrübəli inqilabçılar Mirheydərzadə, Mirzəli bəy Bəktaşi partiya işini mövcud vəziyyətə, şəraitə uyğunlaşdıraraq "Hümmət" qrupunun fəaliyyətini davam etdirməyə başladılar. Məqalənin sonunda belə bir nəticəyə gəlinmişdir ki, müharibə illərində və ondan sonra yaradılan erməni təşkilatları və komitələri ingilislərin, amerikanların və bolşeviklərin yardımı sayəsində Naxçıvan torpaqlarını zəbt etməyə can atırdılar. Ancaq naxçıvanlıların əzmkarlıq göstərərək mərdliklə vuruşması öz torpaqlarını erməni işğalından qurtarmaları ilə nəticələndi.

***

***Xəlilov, T. Naxçıvan abidələrinin yaxın şərq paralelləri /Toğrul Xəlilov//Xəbərlər:Elmi jurnal.-2023.-№1.-S.58-63.***

Məqalədə Azərbaycan arxeologiyasında ən aktual və maraqlı məsələlərdən biri - Naxçıvandakı arxeoloji abidələrin yaxın Şərq mədəniyyəti ilə bağlılığı göstərilmişdir. Qeyd olunan problemin tədqiq olunmasında onlardan əldə olunmuş arxeoloji materiallar mühüm yer tutur. Naxçıvandakı arxeoloji abidələr tədqiq edilmiş, onlardan aşkar olunan arxeoloji materialların Yaxın Şərq ölkələrindəki abidələrin maddi-mədəniyyət nümunələri ilə müqayisəsi aparılmışdır. Tədqiqat zamanı Naxçıvandakı arxeoloji abidələrin Yaxın Şərq mədəniyyəti ilə bağlılığı müəyyən edilmişdir.